Yusif NAMAZOĞLU

## Sənsizlik yeyir məni

Ac qurddu, yalquzaqdı,
Sənsizlik yeyir məni.
Ürəyim qançır olub,
Ağrılar döyür məni.

Gözlərim qan çanağı,
Qəlbim həsrət yolağı.
Sükutun korş bıçağı,
Diricə soyur məni.

Bağışla qəm baxışlım,
Həyəcanım, təlaşım.
Qorxma qarın, yağışın,
Bəmbəyaz yuyur məni.

## Yox

Bura mənim evimdi,
Qəmi var gülüşü yox.
Qapı bacası bağlı,
Gedişi, gəlişi yox.

Çaşmışam, duruxuram,
Tək-tənhayam, qorxuram.
Zülmətdi, darıxıram,
Ayım yox, Günəşim yox.

---

Türküstan.- 2023.- 24-30 oktyabr, №38.-S.11.